Azərbaycan Respublikasının Auditorlar Palatası
Daxil № 44
"19" 01. 2021-ci il

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ

Poçt indeksi AZ-1005, Bakı şəhəri
Gənclər Meydanı, 1

Tel: (994 12) 492 88 41; Faks: (994 12) 492 97 66
http://www.constcourt.gov.az

«18» 01 2021 il

№ 01/01-69

**Azərbaycan Respublikasının**
**Auditorlar Palatasının Sədri**
**İqtisad elmləri doktoru,**
**professor Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Azərbaycan Respublikasının bazar infrastrukturu sistemində özünəməxsus yeri və şəffaflığın təmin edilməsində əvəzsiz rolu olan Auditorlar Palatasının 25 illik yubileyi münasibətilə Sizi, Palatanın kollektivini və üzvlərini Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi adından təbrik edirəm.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş demokratik, dünyəvi inkişaf siyasəti bu gün möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Mütərəqqi və çevik siyasət nəticəsində Azərbaycanın iqtisadi qüdrətinin daha da artırılması, qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, xalqın rifah halının yüksəldilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmiş və respublikamızın regionda lider dövlətə çevrilməsinə səbəb olmuşdur.

Eyni zamanda böyük qürur hissi ilə qeyd etmək istərdik ki, Vətən müharibəsində qazanılan böyük tarixi qələbə Azərbaycan dövlətinin qüdrətini, yenilməzliyini bir daha bütün dünyaya sübut etdi.

Auditorlar Palatası Sizin rəhbərliyiniz ilə ölkəmizdə təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun dəqiq və dürüst aparılması, dövlət əmlakının düzgün idarə olunması istiqamətində yüsək peşəkarlıqla fəaliyyət göstərərək, müstəqil auditin inkişafına, tərəqqisinə və şəffaflığın təmin edilməsinə daim dəyərli töhfələrini verir.

Ümid edirik ki, Auditorlar Palatası qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq dövlət qurumları ilə birgə dövlətimizin mənafeyinin qorunması, istiqamətində prinsipial mövqeyə əsaslanan fəaliyyətini bundan sonra da uğurla davam etdirəcəkdir.

Əlamətdar gün münasibətilə Sizi, Palatanın kollektivini və üzvlərini bir daha səmimi təbrik edir, ölkəmizin iqtisadi qüdrətinin və potensialının artması naminə səmərəli fəaliyyətinizdə böyük müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

**Fərhad Abdullayev**